**Bu il fevralın 5-də Prezident İlham Əliyev bütün növ əmək pensiyalarının orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi haqqında sərəncam imzalayıb. Sənəddə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilməni həyata keçirmək tapşırılıb.**

# Əmək pensiyalarının indeksləşdirilməsi əhaliyə diqqət və qayğının növbəti təzahürüdür

Möhtərəm dövlət başçımız tərəfindən atılan bu addım ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələri, xüsusilə pensiyaçılar arasında dərin razılıq hissilə qarşılanıb. Dövlətimizin əsas məramı xalqımızın rifah halını daim yaxşılaşdırmaq, ölkədə sosial ədaləti və vətəndaş məmnunluğunu təmin etməkdir. Ölkə vətəndaşları bunu görür və yüksək dəyərləndirirlər.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) direktoru Himalay Məmişov bu il fevralın 5-də keçirilən mətbuat konfransında deyib ki, 2020-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun şəkildə pensiyalar indeksləşdirilərək 11,4 faiz artırılır.



Onun sözlərinə görə, 2020-ci ildə pensiya, prezident təqaüdü və müavinət, ünvanlı sosial yardım üzrə ödənişlərə əvvəlki ilə nisbətən 20 faiz, yaxud 1 milyard manat çox olmaqla 5 milyard 743 milyon manat vəsait yönəldilib. Pensiyaların növbəti artımı, ümumilikdə 1 milyon 140 min pensiyaçını və ya pensiyaçıların 93 faizini əhatə edir. Digər pensiyaçılar isə xüsusi şərtlər əsasında pensiya təyin olunmuş şəxslərdir.

Yeri gəlmişkən, minimum və orta pensiyanın alıcılıq qabiliyyəti indeksinə görə, Azərbaycan MDB məkanında liderliyini qoruyub saxlayır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti hər zaman vətəndaşının yanındadır, əhalinin sağlamlığı, maddi rifah halının yaxşılaşdırılması və sair mühüm məsələlər heç bir halda diqqətdən kənarda qalmır.

Məlumdur ki, 2020-ci il yeni koronavirus pandemiyası bütün dünyanı çənginə alaraq dünya əhalisinin sağlamlığına, qlobal iqtisadiyyatın inkişafına ciddi təhdidlər törədib. Bu təhlükə hələ də davam edir. Pandemiya səbəbindən dünya iqtisadiyyatında kəskin geriləmə baş verir.

Azərbaycan da dünyanın bir parçasıdır və planetdə baş verən proseslər az, yaxud çox dərəcədə bizim ölkəmizə də təsir göstərməyə bilməz. Lakin Azərbaycan hökuməti bütün çətinliklərə baxmayaraq, əhalinin sosial problemlərinin həllinə diqqət və qayğını azaltmır.

Sonda bir daha vurğulamaq istəyiəm ki, çox hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən bütün növ əmək pensiyalarının orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi haqqında sərəncam imzalaması dövlətimizin ölkə əhalisinə göstərdiyi diqqət və qayğının növbəti təzahürüdür.

***Esmira RƏHİMOVA,***
***"Ailələrə sosial dəstək" İctimai Birliyinin sədri***

Xalq qəzeti 2021.- 7 fevral.- S.3.